Azadlıq Çırağı

azadliqciragi.org

# Bazarlar haqqında iyirmi mif


***Tom G. Palmer***

Baş elmi işçi

Keyto İnstitutu


"Afrikanın Azadlığı üçün İnstitusional Əsaslar"
mövzusuna həsr olunmuş konfransda məruzə edilmişdir
2007 Regional konfrans
Mont Pelerin cəmiyyəti
Nayrobi, Keniya

26 fevral 2007

Sosial koordinasiya problemlərinin bazar mexanizmləri vasitəsi ilə həllinin keyfiyyət və məhdudiyyətləri haqqında düşünərkən, bəzi ümumi mifləri aydınlaşdırmaq faydalı olardı. “Miflər” dedikdə, mən heç bir arqument və sübut olmadan həqiqət kimi qəbul edilən bəzi bəyanatları nəzərdə tuturam. Onları biz radiodan, dostlarımızdan, siyasətçilərdən eşidirik - sanki onlar daim efirdədir. Onlar elə bil dərin bir müdrikliyin məhsulu kimi təkrar olunur. Təhlükə burasındadır ki, onlar belə geniş yayıldığından, tənqidi baxımdan təhqiqat mövzusu olmur. Mən də bu məqalədə məhz bunu etmək təklifini irəli sürürəm.

Belə fikirlərin hamısı olmasa da, çoxu azad bazara düşmən mövqe tutanlar tərəfindən yayılır. Onların bəziləri isə daha kiçik dairələrdə azad bazar həvəskarlarına məxsusdur.

Nəticədə isə dörd kateqoriya üzrə qruplaşdırılan iyirmi mif yaranır.

- Etik tənqid
- İqtisadi tənqid
- Hibrid formalı etik-iqtisadi tənqid
- Yüksək dərəcədə coşğun müdafiə

**Etik Tənqid**

1. Bazarlar əxlaqsız, ya da mənəviyyatsızdır

*Bazarlar insanları yalnız iqtisadi gəlirləri haqqında düşünməyə sövq edir. Bazar mübadiləsində nə mənəviyyat, nə də bizi insan kimi fərqləndirən amillərə münasibətdə öhdəlik hissi yoxdur; yəni bu zaman bizim yalnız bizə xeyri olan şeylər haqqında deyil, nəyin düzgün, nəyin səhv, nəyin əxlaqi, nəyin mənəviyyatsızlıq olduğu barədə düşünmək qabiliyyətimiz də olmur.*

Bundan daha yanlış ittiham təsəvvür etmək çətin olardı. Çünki mübadilə olan yerdə ədalətə hörmət olmalıdır. Mübadilə edən adamlar alıcılardan fərqlənirlər; mübadilə edən adamlar digərlərinin ədalətli tələblərinə hörmətlə yanaşır. İnsanları mübadiləyə sövq edən, hər şeydən əvvəl, onların başqalarının malik olduğuna sahiblənmək istəyidir. Lakin əxlaq və qanun onlara bunu sadəcə olaraq alıb götürməyi yasaq edir. Mübadilə-resursların birinin təyinatının başqası ilə dəyişdirilməsidir. Bu o deməkdir ki, istənilən mübadilə elə bir bazis xətti ilə olçülür ki, əgər mübadilə yoxdursa, tərəflər əvvəldən malik olduqlarını ozlərində saxlayırlar. Mübadilə çərçivələri ədalətdə ozünə möhkəm bazis tələb edir. Belə mənəvi və hüquqi bazalar olmadan mübadilə mövcud ola bilməz.

Lakin bazarlar heç də yalnız ədalətə hörmət əsasında yaranmayıb. Onlar həmçinin, insanların yalnız öz istəklərini deyil, həm də digərlərinin arzularını nəzərə almaq, özlərini onların yerinə qoymaq bacarığı əsasında formalaşıblar. Öz müştərilərinin nə istədiyini düşünməyən restoran sahibinin biznesi uzun sürməz. Əgər müştərilər yeməkdən zəhərlənərlərsə, onlar geriyə qayıtmazlar. Yemək onlara ləzzət verməzsə, yenə də onlar həmin restorana gəlməzlər. Restoran sahibi biznesini itirəcək. Bazarlar iştirakçılara özlərini başqalarının yerinə qoymaq, onların istəklərinin nədən ibarət olduğunu nəzərə almaq, məsələləri onların gözüylə görməyə çalışmaq üçün stimul yaradır.

Bazarlar zorakılığa alternativ təşkil edir. Bazarlar bizi ictimailəşdirir. Bazarlar bizə digərləri haqqında düşünməyin zəruri olmasını xatırladır.

2. Bazarlar xəsislik və eqoizmi təşviq edir

*Bazarda adamlar həmişə ən aşağı qiymətli mal tapmağa və ən yüksək mənfəət əldə etməyə çalışır. Bununla da, onlar xəsislik və eqoizmə can atır və başqaları haqqında düşünmürlər.*

Bazarlar xəsislik və eqoizmi nə təşviq edir, nə də onun qarşısını alır. Onlar həm ən alturistlərə, həm də ən eqoistlərə öz məqsədlərinə sülh yolu ilə çatmaq üçün imkanlar yaradırlar. Öz həyatlarını insanlara xidmət göstərməyə həsr edənlər, amallarına çatmaq üçün məqsədləri ancaq bazardan öz anbarlarını var-dövlətlə doldurmaq olan şəxslərdən az istifadə etmirlər. Sonunculardan bəziləri hətta var-dövlət yığmaqla digərlərinə kömək etmək imkanlarını artırırlar. Corc Soros və Bill Qeyts sonunculara nümunədir, onlar böyük miqdarda pulu, onun ən az bir hissəsini xeyriyyəçilik fəaliyyəti vasitəsilə başqalarına kömək etmək imkanlarını artırmaq məqsədilə yığırlar.

Tereza ana özünə məxsus olan sərvətlə böyük sayda insanı yedirtmək, geyindirmək və onlara rahatlıq vermək istəyir. Bazarlar ona imkan verir ki, o, köməyə ehtiyacı olanlar üçün ən aşağı qiymətə yorğan, yemək və dərmanlar əldə etsin. Bazar elə sərvətin yaranmasına imkan verir ki, o, bədbəxtlərə yardım etmək və xeyirxahların başqalarına kömək qabiliyyətini artırmaq üçün istifadə edilsin. Bazarlar xeyirxahların xeyriyyəçilik fəaliyyətini mümkün edir.

"Şəxsi maraq" güdən insanların məqsədləri aydınlaşdırılarkən ümumi bir səhvə yol verilir ki, bu da sonda eqoizmlə dolaşıq düşür. Bazardakı adamların məqsədləri həqiqətən də özlərinə xidmətdir, bununla belə, öz məqsədlərini güdərkən onlar digərlərinin də - ailə üzvlərinin, dostlarının, qonşularının və hətta heç vaxt görməyəcəyi insanların da maraqlarını və rifahlarını düşünmüş olurlar. Yuxarıda qeyd olunduğu kimi, bazarlar insanları başqalarının, hətta tamam yad adamların belə qayğısını çəkməyə vadar edir.

Tez-tez deyildiyi kimi, insan cəmiyyətinin ən möhkəm özülü heç də məhəbbət və ya dostluq deyil. Məhəbbət və dostluq istər kiçik, istərsə də böyük qruplar daxilində əməkdaşlıq yolu ilə qazanılmış qarşılıqlı mənfəətin bəhrələridir. Bu cür qarşılıqlı mənfəət olmadan cəmiyyətin mövcudluğu sadəcə qeyri-mümkün olardı. Qarşılıqlı mənfəət olmasaydı, Tomun xoşbəxtliyi Cunun bədbəxtliyi olardı, yaxud əksinə, onlar heç vaxt əməkdaşlıq edə bilməzdilər, heç vaxt nə həmkar, nə də dost ola bilərdilər. Əməkdaşlıq bir-birini tanımayan, dilləri və ya dinləri fərqli olan və ya bir daha heç vaxt görüşməyəcək insanlar arasında əməkdaşlığı mümkün edən bazarlar vasitəsilə yüksək dərəcədə genişləndirilir. Ticarət və yaxşı müəyyən edilmiş, qanuni cəhətdən əsaslandırılmış mülkiyyət hüquqları vasitəsilə ticarətin təşviqindən əldə edilən potensial gəlirlərin mövcudluğu yad insanlar arasında xeyriyyəçiliyi və sərhədlərin o tayında məhəbbət və dostluğu mümkün edir.

**İqtisadi tənqid**

3. Bazarlar monopoliyaya aparır

*Dövlət müdaxiləsi olmasaydı, azad bazarlara arxalanma hər şeyin bir neçə böyük şirkət tərəfindən satılmasına aparıb çıxaracaqdı. Bazarlar təbii olaraq monopoliya yaradır, belə ki, kiçik istehsalçılar yalnız öz mənfəətlərini güdən firmalar tərəfindən sıxışdırılıb çıxarılır. Lakin dövlət ictimai maraqları güddüyündən, monopoliyaları məhdudlaşdırmaq üçün fəaliyyət göstərir.*

Hökumətlər adətən monopoliyanı onlara sərf edən fərdlərə, yaxud qruplara verə bilərlər və tez-tez də verirlər; belə ki, onlar digər qrupların bazara girməsinə və müştərilərin sifarişləri uğrunda rəqabətə qoşulmasına qadağa qoyurlar. Monopoliya da məhz budur. Monopoliya hər hansı dövlət agentliyinə (məsələn, bir çox olkələrdə monopoliya olunmuş poçt xidmətləri kimi), yaxud üstün hesab olunan firmaya, ailəyə və ya şəxsə də verilə bilər.

Azad bazarlar monopoliyanı təşviq edirmi? Bunun belə olduğunu düşünməyə demək olar ki, heç bir kiçik və ya yaxşı səbəb yoxdur, əksini düşünmək üçünsə səbəblərin sayı lap çoxdur. Azad bazarlar insanların bazara daxil olmaq, bazardan çıxmaq, istədiyi adamdan istədiyini alıb-satmaq azadlığına əsaslanır. Əgər bazara sərbəst girən firmalar orta səviyyədən yuxarı mənfəət əldə edə bilirsə, həmin mənfəət rəqibləri cəlb edir, onlar da həmin mənfəət uğrunda rəqabətə girişirlər. Bəzi iqtisadi ədəbiyyat elə hipotetik situasiyaların təsvirini təqdim edir ki, burada müəyyən bazar şərtləri daimi "rentalar"a, yəni resursların başqa cür istifadəsindən qazanma kimi müəyyən edilən alternativ xərcdən (*eng.* opportunity cost) artıq gəlirlərə gətirib-çıxara bilər. Buna konkret nümunə gətirmək çox çətindir, lakin nadir resurslara sahiblik (məsələn, Rembrantın əsərləri) kimi nisbətən az maraqlı halları göstərmək olar. Bunun əksinə olaraq, tarixdə hökumətlərin öz tərəfdarlarına xüsusi imtiyazlar verməsi halları çoxdur.

Bazara girmək və kimdən almaq istədiyini seçmək azadlığı həmin müvəqqəti rentaları yaxşı mal, yaxud yaxşı xidmət təklif etmək hesabına yox etməklə istehlakçı maraqlarını təşviq edir. Bunun əksinə olaraq, hökumətlərə kimin mal və ya xidmət təklif edib-edə bilməməsini müəyyən etmək səlahiyyətinin verilməsi tarixən mövcudluğu müşahidə olunan monopoliyalar yaradır ki, bu monopoliyalar istehlakçılara ziyan vurur və insan rifahının əsaslandığı məhsuldar qüvvələrin gücünü məhdudlaşdırır. Əgər bazarlar monopoliyaların yaranmasına səbəb olardısa, onda bir çox adamın öz zəif rəqibləri və müştəriləri hesabına monopoliya alması üçün hökumətə müraciət etməsinin şahidi olmazdıq. Onlar, bunun əvəzinə, monopoliyalarını bazardan əldə edə bilərdilər.

Xatırlamağa dəyər ki, hökumət ozü monopoliya səlahiyyətlərini həyata keçirmək istəyir. Hökumətin klassik xüsusiyyəti ondan ibarətdir ki, verilmiş coğrafi ərazidə gücün hesabına monopoliya səlahiyyətlərini həyata keçirir. Niyə biz belə monopoliyanın rəqabətə-rəqabət azadlığı ilə müəyyənləşən bazardan daha dost mövqedə dayanmasını gözləməliyik?

4. Bazarlar elə mükəmməl informasiyalardan asılıdır ki, onlara çıxış dövlət tənizimlənməsini tələb edir

*Bazarların effektiv olması üçün bütün bazar iştirakçıları öz fəaliyyətlərinin dəyəri haqqında tam informasiyaya malik olmalıdırlar. Əgər bəziləri digərlərindən daha çox informasiyaya malik olarsa, belə assimetriyalar qeyri-effektiv və ədalətsiz nəticələrə gətirib çıxara bilər. Hökumət bazarlardakı informasiya çatışmazlığını təmin etmək üçün müdaxilə etməli və həm effektli, həm də ədalətli nəticələr yaratmalıdır.*

İnformasiya istifadə etdiyimiz digər predmetlər kimi həmişə dəyərə malikdir, yəni onu daha çox əldə etmək üçün nəsə ödəməliyik. İnformasiyanın özu bazarda mübadilə məhsuludur; məsələn, biz informasiyalarla dolu kitablar alırıq, ona görə ki, bizim üçün kitabdakı informasiyalar onun üçün sərf etdiyimiz qiymətdən daha dəyərlidir. Bazarlar öz fəaliyyəti üçün bitkin informasiyanı demokratiyaların tələb etdiyindən artıq tələb etmir. İnformasiyanın yalnız bazar iştirakçıları üçün bahalı, siyasi iştirakçılar üçün isə pulsuz olması fərziyyəsi həddən artıq destruktiv dərəcədə qeyri-realdır. Nə siyasətçilər, nə də seçicilər mükəmməl informasiyaya malik olurlar. Əslində, seçici və siyasətçilərin lazımi miqdarda informasiya əldə etmək stimulu bazar iştirakçılarından daha azdır, çünki onlar öz pullarını xərcləmirlər. Məsələn, ictimai fonddan pul xərcləyən siyasətçilər öz pullarını xərcləyən adamlar qədər ehtiyatlanmaqda, yaxud mümkün qədər daha çox informasiya əldə etməkdə maraqlı olmurlar.

Dövlət müdaxiləsi lehinə dair ümumi arqument istehlakçılarla ixtisaslaşmış xidmət təchizatçıları arasındakı informatik assimmetriyalardan irəli gəlir. Məsələn, həkimlər həmişə tibbi məsələlər haqqında xəstələrdən daha çox məlumatlı olurlar, buna görə də, biz özümüzü müalicə etmək əvəzinə, həkimə gedirik. Bu səbəbdən iddia edilir ki, istehlakçıların hansı həkimin daha peşəkar olduğunu, onların düzgün müalicə alıb-almadığını, yaxud onların çox pul verib-vermədiyini bilməyə imkanları olmur. Dövlət tərəfindən lisenziyalaşdırma buna cavab kimi təklif edilə bilər; lisenziya olduqda, insanlar inanırlar ki, həkim ixtisaslı, səlahiyyətli və vicdanlıdır. Tibb və digər peşələr sahəsində lisenziyalaşdırma faktlarını öyrənərkən bunun əksini müşahidə edirik. Bazarların pilləli sertifikatlaşdırmaya meylli olmasına baxmayaraq, lisenziyalaşdırma ikili xarakter daşıyır; lisenziya var, yaxud yoxdur. Bundan əlavə, lisenziyalaşdırılmış ixtisaslar üçün ümumi olan peşəkarın "qeyri-peşəkar davranışa" görə lisenziyasının ləğv edilməsidir ki, bu da çox zaman reklam kimi müəyyən edilir. Lakin reklam bazarların məhsul və xidmətlərin mövcud olması, nisbi keyfiyyətlər və qiymətlər barədə informasiya təqdim etməsi üçün vasitələrdən biridir. Lisenziyalaşdırma informasiya assimmetriyası halları üçün həll deyil, onların səbəbidir.

5. Bazarlar yalnız bitkin informasiyaya malik saysız-hesabsız insanın eyni çeşidli istehlak malları ilə ticarəti zamanı fəaliyyət gostərir

*İstehsalın artması və mənfəətin azalması ilə xarakterizə edilən bazarın effektivliyi onunla ölçülür ki, heç kimin qiymət müəyyənləşdirməsi tələb olunmur, yəni nə alıcının, nə də satıcının bazara giriş- çıxışı qiymətə təsir edə bilmir. Mükəmməl rəqabətli bazarda heç bir fərdi alıcı, yaxud satıcı qiymətlərə təsir etmək iqtidarında deyil. Bütün məhsullar*

*həmcinsdir və məhsul və qiymətlər haqqında informasiyalar pulsuzdur. Lakin real bazarlar mükəmməl surətdə rəqabətli olmadığından, hökumətin müdaxiləsi və bəzi şeylərə düzəliş verməsi tələb olunur.*

İqtisadi qarşılıqlı fəaliyyətin abstrakt modelləri faydalı ola bilər, lakin nəzəri abstraksiyalara normativ yüklü terminlərin, məsələn "mükəmməl" sözünün əlavə edilməsi çox böyük ziyan vura bilər. Əgər bazarın müəyyən şəraiti "mükəmməl" rəqabət kimi qiymətləndirilirsə, onda digər bir şey "qeyri-mükəmməl"dir və ehtimal olunur ki, bazardan kənarda olan bir qurum tərəfindən təkmilləşdirilməlidir. Əslində "mükəmməl" rəqabət sadəcə əqli modeldir və biz buradan, məsələn, resursların idarə edilməsində mənfəətin rolu (onlar orta səviyyədən yüksək olduqda, rəqiblər təchizatı artırmaq, qiymətləri salmaq və mənfəəti azaltmaq məqsədilə resursları dəyişəcəklər) və nağd pulu saxlamaq ehtiyacının yaranmasında qeyri-müəyyənliyin rolu (informasiya pulsuz olsaydı, hamı öz pulunu sərmayəyə yatırardı və yalnız yeni sərmayə yatırmaq lazım gəldikdə, onu nağd formaya çevirərdi. Buradan belə nəticəyə gələ bilərik ki, pulun nağd şəkildə mövcudluğu informasiyanın olmamasının nəticəsidir) kimi maraqlı faktları öyrənə bilərik. "Mükəmməl" rəqabət bazarı necə inkişaf etdirmək üçün bələdçi deyil; o, rəqabət şərtlərini real dünyadan təcrid edən bazar proseslərinin əqli modeli üçün seçilmiş zəif bir termindir.

Dövləti bazarları "mükəmməl" səviyyəyə apara biləcək subyekt kimi təsəvvür etmək üçün onun elə bir "kamil" demokratik siyasətin məhsulu olması vacibdir ki, burada saysız-hesabsız seçicilər və namizədlər fərdi şəkildə siyasətə təsir edə bilməsin, bütün siyasət yekcins və siyasətin qiymət və mənfəəti haqqındakı informasiyalar pulsuz olsun. Lakin bu heç vaxt belə olmur.

Siyasi variantlar arasından seçmənin elmi metodu tələb edir ki, seçim həqiqətən əl çatan variantların arasından aparılsın. Yuxarıda müəyyənləşdirilmiş üsullarla aparılan həm siyasi, həm də bazar seçimləri heç vaxt "mükəmməl" olmayacaq, çünki seçim "mükəmməl" deyil, yalnız real bazar proseslərinin və siyasi proseslərin müqayisəsi əasında aparılmalıdır.

Həqiqi bazar öz iştirakçıları arasında informasiya təminatı və qarşılıqlı mənfəətli əməkdaşlıq üçün xeyli üsullar yaradır. Bazarlar insanları, əməkdaşlıq formaları da daxil olmaqla, informasiya əldə etmək üçün sistemlə təmin edir. Reklam, kredit büroları, reputasiya, əmtəə birjaları, fond birjaları, sertifikatlaşdırma şuraları və digər bu kimi təsisatlar bazarlar daxilində qarşılıqlı mənfəətli əməkdaşlıq yaratmaq məqsədinə xidmət edir. Qeyri-kamil olduqlarına görə bazarlardan imtina etməkdənsə, insanların qeyri-qənaətbəxş rifahını yaxşılaşdırmaq məqsədilə bazarlardan daha yaxşı istifadə üsullarını aramalıyıq.

Nəhayət, rəqabət bazarın vəziyyəti kimi deyil, rəqabətli davranış prosesi kimi daha yaxşı başa düşülər. Sahibkarlar digərləri ilə rəqabət aparmaq üçün azad surətdə bazara girə bilirsə və istehlakçılar istehsalçıların arasında seçim etməkdə sərbəstdirsə, onda istehlakçıların sifarişləri uğrunda istehsalçılar arasındakı rəqabət həmin müştərilərin xeyrinə olan davranış tərzinə gətirib çıxarır.

6. Bazarlar, ola bilər ki, ictimai (kollektiv) istehlak malları istehsal edə bilmir

*Əgər mən alma yeyirəmsə, sən alma yeyə bilməzsən; almanın istehlakı sırf rəqabətli prosesdir. Əgər mən kino göstərirəmsə və başqalarının baxmasını istəmirəmsə, pul ödəməyənləri içəri almamaq üçün pul xərcləyib hasar ucaltmalıyam. İstehlakı rəqabətsiz olan və istisnalığı baha başa gələn bəzi məhsullar bazarda istehsal oluna bilmir ki, hamının onların başqaları tərəfindən istehsal olunmasını gözləməyə meyli olur. Əgər sən cihaz istehsal edirsənsə, mən ancaq onu istehlak edirəm və onu istehsal etməyə marağım olmur. Eyni şey sənə də xasdır. Belə məhsulların ictimailiyi onların yeganə təchizat vasitəsi olan dövlət tərəfindən təchizatını tələb edir. Belə məhsullara yalnız müdafiə və hüquq sistemini təmin edən mallar deyil, həm də təhsil, nəqliyyat və səhiyyə kimi digər sahələr daxildir. Belə məhsulların istehsalını heç vaxt bazara etibar etmək olmaz, çünki pul ödəməyənlər bunlardan müftəxorcasına istifadə edəcəklər və hamı da belə etməyə çalışdığından, heç kim pul ödəməyəcək. Beləliklə, bu məhsulları ancaq dövlət istehsal etməlidir.*

Dövlət tərəfindən ictimai məhsulların istehsalı bəhanəsi ən çox sui-istifadə olunan iqtisadi arqumentlərdəndir. Məhsulların istehlakının rəqabətli olub-olmaması adətən məhsula yarandığı andan xas olan bir xüsusiyyət deyil, istehlakı rəqabətli edən əsas cəhət istehlakçı qrupun say olçüsüdür. Üzgüçülük hovuzu iki nəfər üçün rəqabət obyekti olmaya bilər, lakin iki yüz nəfər üçün əsl rəqabətdir. Yasaqlarla bağlı xərclər isə bütün məhsullara, istər ictimai, istərsə də özəl, şamil olunur: əgər sənin mənim almalarımı yeməyinin qarşısını almaq istəyirəmsə, nəsə etməliyəm, məsələn hasar çəkməliyəm. İstehlak üçün rəqabətli olmayan bəzi məhsullar, məsələn, peşəkar futbol oyunu (əgər sən ona baxırsansa, bu o demək deyil ki, mən baxa bilmərəm) yalnız ona görə istehsal olunur ki, sahibkarlar pul ödəməyənləri kənarlaşdırma vasitələrinə kapital qoyurlar.

Bəzi məhsulların bəhanə olunan ictimailiyi, məhsulların ayrılmaz əlaməti olmamaqdan əlavə, həmin məhsulların istisnasız və hətta dəyərsiz əsasda belə mövcud olması üçün verilmiş siyasi qərarın bir xüsusiyyətidir. Əgər dövlət “azad yollar” (yəni pulsuz nəqliyyat) istehsal edirsə, özəl müəssisələrin də bunu yaradacağını və rəqabət aparacağını gözləmək çətindir. Lakin qeyd edək ki, “azad yollar” həqiqətdə heç də azad deyil, çünki (həbsxana adlanan xüsusilə kəskin formalı qadağaya malik olan) vergilər hesabına formalaşır və həmçinin qiymətləndirmənin olmaması qeyri-effektiv istifadənin (məsələn, tıxacların olması) birinci şərtidir. Bu da öz növbəsində, nadir resursların (nəqliyyat zamanı boş sahələr) öz yüksək dəyərinə uyğun istifadə olunması üçün təyinat mexanizmlərinin olmamasını əks etdirir. Həqiqətən, bütün dünyada yolların odənişli olması meyli var ki, bu da yolların dövlət təchizatı kimi ictimai məhsul arqumentinə aid olmasını şübhə altına alır.

Bazarlarda təchizatı mümkünsüz hesab olunan bir çox məhsullar hal-hazırda elə bazar mexanizmləri vasitəsilə təmin edilməkdədir. Mayaklardan tutmuş, təhsilə, ictimai asayişin qorunmasına, nəqliyyata kimi bütün məhsullar bir daha göstərir ki, məhsulların ictimai xüsusiyyətinə istinadən səslənən çağırışlar əsassızdır və yaxud çox şişirdilmişdir.

Müəyyən məhsulların ancaq dövlət tərəfindən istehsal oluna bilməsi haqqında ümumi arqument ondan ibarətdir ki, qiymət mexanizmi vasitəsilə tənzimlənməmiş kənar faktorlar mövcuddur. Beləliklə, geniş yayılmış təhsil, təhsilli insanların mənfəətindən kənar ictimai mənfəət yaradır ki, bu da guya ümumi vergi xərcləri vasitəsilə dövlət tərəfindən edilən təchizat və mailiyyəşdirməyə bəraət qazandırmış olur. Lakin başqalarının mənfəətinin az və ya çox olmasından asılı olmayaraq, təhsilli adamların mənfəəti özləri üçün o qədər böyük olur ki, bu onları təhsilə investisiya qoymağa sövq edir. İctimai mənfəət heç də həmişə müftəxorlara maneə yaratmır. Faktiki olaraq, bu gün sərvətlə bağlı aparılan tədqiqat göstərir ki, dövlət təhsili monopoliyaya alanda, adətən kasıbların ən kasıbı üçün bu məhsulu istehsal edə bilmir, buna baxmayaraq, yoxsullar təhsilin mənfəətini dərk edir və öz cüzi gəlirlərinin əhəmiyyətli hissəsini uşaqlarının təhsilinə yönəldirlər. Uşaqlarının təhsilinin hansı kənar təsirlər yaradacağından asılı olmayaraq, onlar uşaqlarının təhsilini təmin etmək üçün pul ödəməyi dayandırmırlar.

Nəhayət, xatırlamalıyıq ki, bazar tərəfindən ictimai məhsulun effektiv istehsal edilməsinin mümkünsüzlüyünü iddia edən hər bir arqument eyni dərəcədə həmin malların dövlət tərəfindən istehsal edilməsi ehtimalına əsaslanır. Ədalətli və qanunla idarə olunan dövlətin mövcudluğu və fəaliyyəti özü-özlüyündə ictimai məhsuldur, yəni onun yaratdığı mənfəətin istehlakı rəqabətsizdir (ən azı mülki vətəndaşlar arasında) və bu mənfəətin qorunmasında iştirak etməyənləri (məsələn, məlumatlı seçicilər) onun istifadəsindən uzaqlaşdırmaq çoxlu pul tələb edərdi. Siyasətçi və seçicilərin ədalətli və effektiv hökumət yaratmaq marağı, şübhəsiz ki, sahibkar və istehlakçıların bazarda əməkdaşlıq yolu ilə ictimai məhsulları əldə etmək stimulu ilə müqayisədə çox təsirli deyildir. Bu heç də o demək deyil ki, dövlətin ictimai məhsulların istehsalında heç bir rolu olmamalı, ancaq o, məhsul və xidmətlərin təmin edilməsi üçün vətəndaşları ona əlavə öhdəliklər verməkdən çəkindirməyə çalışmalıdır. Əslində, dövlət məsuliyyətlə nə qədər çox yüklənərsə, onun xüsusi üstünlüyə malik olacağı ictimai məhsul (məsələn, vətəndaşların hüquqlarını təcavüzdən qorumaq) istehsal etmək qabiliyyəti bir o qədər az olar.

<u>7. Mənfi və ya müsbət xarici faktorlar olanda, bazarlar işləmir (yaxud səmərəsizdir)</u>

*Bazarlar o zaman işləyir ki, fəaliyyətin bütün təsirləri qərar qəbul edənlərin üzərinə düşsün. İnsanlar mənfəəti onun istehsalında iştirak etmədən əldə edirlərsə, onda bazarlar lazımi həcmdə məhsul istehsal edə bilməyəcəklər. Əgər insanlar "mənfi mənfəət" əldə edirlərsə, yəni əgər ziyana düşürlərsə və bu xərclər məhsulların istehsalı qərarında nəzərə alınmayıbsa, onda bazarlar digərlərinin hesabına bir qədər qazanacaq, çünki fəaliyyətdən yaranan mənfəət bir qrupa gedir, xərcləri isə digər tərəf çəkir.*

Xarici təsirlərin mövcudluğu dövlətin müəyyən fəaliyyət üzərində səlahiyyətləri öz üzərinə götürməsi, ya da özəl seçimləri əvəz etməsi üçün arqument ola bilməz. Dəbdə olan geyimlər və özünə yaxşı qulluq çoxlu müsbət xarici təsirlər yaradır, çünki başqaları yaxşı geyinmiş, özünə qulluq edən insanlara həsədlə baxır. Lakin bu, paltar təchizatını və özünə yaxşı qulluğu dövlətin öhdəsinə qoymaq üçün səbəb ola bilməz. Bağların salınması, arxitektura və digər bir çox fəaliyyətlər başqalarında müsbət xarici təsirlər yaradır və insanlar da məhz bu üsulla öz bağlarını və binalarını gözəlləşdirməyə can atırlar. Bütün belə hallarda, yalnız istehsalçıların əldə etdiyi mənfəət –müsbət təsirlərə

qərq olanların məmnunluğu da daxil olmaqla – onları belə mallar istehsal etməyə ruhlandırmaq üçün kifayətdir. Digər hallarda, məsələn televiziya və radio yayımı xidmətlərinin göstərilməsi, ictimai fayda digər məhsulların təchizatı, məsələn, şirkətlərin reklamı ilə bağlıdır. İctimai məhsulların istehsal mexanizmlərinin müxtəlifliyi onu istehsal edən sahibkarların ustalığı qədər rəngarəngdir.

Bir çox hallarda, məhz mənfi "xarici təsirlərin" mövcudluğu insanlarda bazar mexanizmlərinin effektivliyini və ədalətliliyini şübhə altına almaq üçün əsas yaradır. Ətraf mühitin çirklənməsi tez-tez qeyd edilən nümunədir. Əgər istehsalçı, istehsal etdiyi malın istehsal haqqını istehsal prosesində onunla tərəf olmağa razılıq verməmiş insanların boynuna qoymaqla, məsələn havaya çoxlu miqdarda tüstü buraxmaqla, yaxud çaylara xeyli kimyəvi maddələr axıtmaqla, həmin malı mənfəətlə istehsal edirsə, o bunu çox güman ki,  davam etdirəcəkdir. İstehsalçı öz məhsullarının satışından mənfəət qazandığı bir vaxtda, çirkli hava ilə nəfəs alanlar, çirkli su içənlər məhsul istehsalı xərclərinin daşıyıcılarına çevrilirlər. Belə hallarda problem bazarın öz işinin öhdəsindən gəlməməsində deyil, sadəcə, onun mövcud olmamasındadır. Bazarlar mülkiyyətə əsaslanır və mülkiyyət hüquqları müəyyənləşdirilmədikdə, yaxud qorunmadıqda, onlar fəaliyyət göstərə bilməz. Ətraf mühitin çirklənməsi halları da buna aiddir. Belə halda təqsirkar bazar deyil, məhz dövlətdir, çünki o, çirkli hava ilə nəfəs alan, zəhərli suyu içən vətəndaşların mülkiyyət hüquqlarını müəyyənləşdirib müdafiə etməkdə aciz olur. Taleyin ümidinə buraxılan insanlar öz hüquqlarını müdafiə etmək hüququna malik olduqda, onlar öz hüquqlarını qoruya və ətraf mühiti çirkləndirənlərin qarşısını ala bilərlər. İstehsalçı çirklənməni aradan qaldırmaq (yaxud dözümlü həddə və ya zərərsiz səviyyəyədək azaltmaq) üçün öz hesabına avadanlıq, yaxud texnologiyalar quraşdıra bilər, ya da çirklənmədən zərər çəkən adamlara onların resurslarından istifadə etməsi müqabilində ödəniş təklif edə (ola bilər, onlara yaşamaq üçün daha yaxşı yer təklif olunsun) bilər. Əks təqdirdə o, istehsalı saxlamalıdır, çünki o, onun təkliflərini qəbul etməyənlərin hüquqlarını pozur və bu da ümumi xərclərin mənfəəti üstələdiyini göstərir. Məhz mülkiyyət hüquqları belə hesablamanı mümkün etməyə və insanlara öz hərəkətlərinin başqaları üzərindəki təsirini hesablamağa imkan verir. Məhz bazarlar hüquqların azad mübadiləsi və müxtəlif tərəflərin öz hərəkətlərinin xərclərini hesablaması üçün imkan yaradır.

Hava və suyun çirkləndirilməsi kimi mənfi xarici təsirlərin yaranması bazarın deyil, bazarın əsaslandığı mülkiyyət hüquqlarını müəyyənləşdirə və müdafiə edə bilməyən hökumətin günahıdır.

<u>8. İctimai sistem mürəkkəb olduqca, o, bazara daha az arxalana bilir və daha çox dövlət idarəsinə ehtiyac duyur</u>

*Cəmiyyətin daha az mürəkkəb dövründə bazarlara arxalanma əla effekt verirdi, lakin iqtisadi və sosial əlaqələrin geniş sıçrayışından sonra bir çox insanların hərəkətlərinin idarə edilməsində və əlaqələndirilməsində dövlətə zərurət yaranır.*

Hər halda, əks tərəf haqlıdır. İtaətə məcbur etmək gücünə malik hər hansı lider tərəfindən, ovçular və ya qida toplayanlar dəstəsi kimi bəsit ictimai sistem effektiv

şəkildə idarə oluna bilərdi. Lakin sosial əlaqələr mürəkkəbləşdikcə, könüllü bazar mübadiləsi daha çox əhəmiyyətli olur. Mürəkkəb sosial sistem bir şəxsin, yaxud bir qrupun öhdəsindən gələ biləcəyindən daha çox informasiyanın əlaqələndirilməsini tələb edir. Bazarlar informasiyaları nisbətən aşağı xərclərlə ötürən mexanizmləri inkişaf etdirib; qiymətlər tələb və təklif haqqında informasiyanı müxtəlif mal və xidmətlər arasında müqayisə aparmağa imkan verən elə yığcam şəkildə ifadə edir ki, dövlətin bürokrat məmurları bunu cild-cild hesabatlarla edə bilmir. Bundan əlavə, qiymətlər dillər, sosial adətlər, etnik və dini fərqlərə baxmayaraq, minlərlə mil uzaqlıqda olan və heç vaxt hər hansı əlaqələri olmayacaq naməlum insanların biliklərindən yararlanmaq imkanları yaradır. Cəmiyyət və iqtisadiyyat mürəkkəbləşdikcə, bazar mexanizmlərinə arxalanmaq daha vacib olur.

9. Bazarlar inkişaf etməkdə olan ölkələrdə işləmir

*Bazarlar yaxşı infrastruktura və hüquqi sistemlərə malik ölkələrdə yaxşı işləyir. Lakin bunlar olmadıqda, bazarlar inkişaf etmiş ölkələr üçün çıxış yolu ola bilmir. Belə hallarda ən azı bazarların fəaliyyət göstərməsi üçün zəruri olan yüksək inkişaf etmiş infrastruktur və hüquqi sistemlər yaradılanadək, dövlət tənzimlənməsi tələb olunur.*

Ümumiyyətlə, infrastrukturun inkişafı bazar mövcudluğunun şərti olmayıb, bazar vasitəsilə toplanan sərvətin göstəricisidir, hüquqi sistemin zəifliyi isə məhz bazarın yaxşı inkişaf etməməsinin səbəbidir. Lakin bu zəiflik hüquqi sistemdə islahatları və bazarların inkişafını təxirə salmaq üçün deyil, bazarların fəaliyyətini təmin edəcək zəruri zəminin yaradılması üçün həmin hüquqi sistemdə islahatların aparılması lehinə tutarlı səbəbdir. İnkişaf etmiş ölkələrin sərvətini qazanmağın yeganə yolu bazarlar üçün hüquqi və institusional bazislərin yaradılmasıdır ki, bunun nəticəsində sahibkarlar, istehlakçılar, investorlar və işçilər azad surətdə sərvət yaratmaq üçün əməkdaşlıq edə bilsinlər.

Hazırkı vaxtda mövcud olan bütün varlı ölkələr nə vaxtsa, bəziləri lap bu yaxınlaradək, yoxsul olmuşdur. Lakin izaha ehtiyacı olan, bəşəriyyətin təbii vəziyyəti hesab olunan yoxsulluq deyil, sərvətdir. Sərvət yaradılmalıdır və onun yaradılmasının ən yaxşı yolu onu yaradan insanların həvəsləndirilməsidir. Mübadilənin təşviq edilməsində yaxşı müəyyən olunmuş və hüquqi cəhətdən qorunan mülkiyyət hüquqları və hüquqi təsisatlara əsaslanan azad bazardan yaxşı heç bir sistem, sərvət yaratmaq üçün stimullar təqdim edə bilməz. Yoxsulluqdan xilasın bircə yolu var, bu da azad bazar vasitəsilə sərvət yaratmaqdır.

"İnkişaf etməkdə olan dövlət" termini hökumətləri mərkəzi planlaşdırma, dövlət mülkiyyəti, merkantilizm, proteksionizm və xüsusi imtiyazlar xeyrinə bazarlardan imtina etmiş dövlətlərə (millətlərə) tez-tez səhvən şamil edilir. Belə dövlətlər heç də inkişaf etməkdə olan dövlətlər deyildir. İstər nisbətən varlı, istərsə də nisbətən kasıb mövqelərdən fəaliyyətə başlamasından asılı olmayaraq, mülkiyyət və müqavilə kimi hüquqi təsisatlar yaradan, bazarları azad edən və gücü, büdcəni və dövlət gücünün miqyasını məhdudlaşdıran ölkələr inkişaf etməkdə olan ölkələr hesab edilirlər.

10. Bazar fəlakətli iqtisadi dövrlərə, məsələn Böyük Tənəzzülə aparır

*Bazar qüvvələrinə arxalanma "bum və iflas" dövrlərinə aparır, belə ki, investorun ozünə güvənməsi investisiyada kütləvi bumlar, mütləq istehsalın azalması, işsizliyin yaranması və ümumi iqtisadi vəziyyətin pisləşməsi ilə sonuclanır.*

İqtisadi dövrlər olan "bum və iflas" bəzən bazara arxalanmanın fəsadları hesab olunur. Sübut ondan ibarətdir ki, ümumiləşmiş şəkildə məhsulun izafi istehsalı bazar xüsusiyyəti deyildir; xidmət və məhsullar izafi istehsal edildikdə, qiymətlər tənzimlənir və nəticədə "iflas" deyil, ümumi bolluq yaranır. Bu və ya digər sənaye sahəsi bazarın mənfəəti qorumaq qabiliyyətindən artıq genişləndikdə, özünü-təshih prosesi işə düşür və mənfəət siqnalları resursları digər fəaliyyət sahələrinə yönəldir. Bazarlarda belə düzəlişin sənayenin bütün sahələrinə tətbiqi üçün ayrılmaz səbəb mövcud deyildir; əslində, bu özü-özünə ziddiyyət təşkil edir (əgər investisiya bütün sahələrdən geri alınarsa və bütün sahələrə yönəldilərsə, onda bu, birincilərdən alınmış kimi hesab olunmayacaqdır).

Bununla belə, davamlı işsizlik dövrlərinin mövcudluğu o vaxt mümkündür ki, hökumətlər valyuta sisteminin ağılsız manipulyasiyaları vasitəsilə qiymət siyasətini təhrif etsin. Bu elə bir yanlış siyasətdir ki, adətən sənayelərə verilən subsidiyalar və bazar tənzimlənməsinin qarşısını alan əməkhaqqı və qiymət nəzarəti ilə bağlı olur və bununla da işsizliyin davam etməsinə gətirib çıxarır. Məhz 1929-cu ildən 2-ci Dünya müharibəsinin sonunadək davam etmiş Böyük Tənəzzül dövründə də belə olmuşdur. İqtisadçılar (o cümlədən Nobel mükafatı laureatı Milton Fridman) göstərmişlər ki, depressiyaya səbəb valyuta təchizatının kütləvi sürətdə və gözlənilmədən ABŞ Federal Ehtiyatlar sistemi tərəfindən azaldılması olmuşdur. Bu da siyasi məqsədlər güdürdü. Ümumi azalma proteksionizmin güclənməsi ilə daha da dərinləşərək ümumdünya fəlakətinə çevrildi və məqsədi (çoxlu miqdarda kənd təsərrüfatı məhsullarını məhv etmək və təklifi azaltmaq) kənd təsərrüfatı məhsullarının qiymətlərini yüksək saxlamağa xidmət edən Milli Bərpa Aktı kimi və bazar güclərini hökumətin yanlış siyasətinin fəlakətli təsirlərini təshih etməkdən uzaqlaşdırmağa xidmət göstərən digər "Yeni razılaşma" kimi proqramların tətbiqi nəticəsində davam etdi. 1977-ci ildə baş vermiş Asiya maliyyə böhranına səbəb investorlara yönəlmiş siqnalları təhrif edən ehtiyatsız valyuta və mübadilə tarif siyasəti olmuşdur. Bazar qüvvələri hökumət siyasətinin səhvlərini düzəltdi, lakin proses çətinlik törətmədən ötüşmədi; çətinliyin səbəbi heç də xəstəliyi müalicə edən dərmanda deyildi, buna əvvəlcədən səbəb olmuş hökumətin uğursuz valyuta və mübadilə məzənnəsi siyasəti idi.

Dövlət valyuta orqanları tərəfindən daha ehtiyatlı valyuta siyasəti qəbul edilməsi ilə belə silsilələr artıq aradan qalxmaqdadır. Bazarın tənzimlənməsi proseslərinə daha böyük inamla qoşulan zaman, nəticə iqtisadi dövrlərin tezliyinin və kəskinliyinin azalması və ticarət azadlığı, büdcənin məhdudlaşdırılması və qanunun aliliyi siyasətini həyata keçirən ölkələrdə uzunmüddətli və dayanıqlı inkişaf olmuşdur.

11. Bazarlara həddən artıq arxalanma sosializmə hədsiz arxalanma qədər gülüncdür. Ən yaxşısı rəngarəng iqtisadiyyatdır.

*Çox adam elə düşünür ki, yumurtaların hamısını eyni səbətə qoymaq ağılsızlıqdır. Ehtiyatlı investorlar öz sərmayə portfellərini diversifikasiya etməklə müxtəlif müəssisələrə qoyurlar, bu da diversifikasiya edilmiş "siyasət portfeli" qədər ağlabatandır və sosializm və bazarların qarışığı deməkdir.*

Ehtiyatlı investorlar daxili informasiyaya malik olmadıqda, həqiqətən də risklərə qarşı öz sərmayə portfellərini diversifikasiya edirlər. Əgər bir fond birjasında qiymətlər düşərsə, digərində qalxa bilər, beləliklə, bir axşamda həm itki, həm də qazanc yarana bilər. Uzun bir müddət ərzində uyğun surətdə diversifikasiya edilmiş investisiya portfeli artım verəcək. Lakin siyasətlər belə deyildir. Bəziləri zaman-zaman yaranan gəlirlərin itməsini, digərləri isə müvəffəqiyyət nümayiş etdirir. İflasa uğraması və ya müvəffəqiyyət qazanacağı bəlli olan firmaların qiymətli kağızlarından ibarət olan "diversifikasiya edilmiş investisiya portfelinin" heç bir əhəmiyyəti olmazdı; diversifikasiyanın əsas səbəbi hansı firmanın mənfəətli, hansının isə məfəətsiz olacağı haqqında xüsusi biliklərə malik olmamaqdır.

Kanadanın Freyzer İnstitutu və dünyanın digər tədqiqat institutlarının geniş şəbəkəsinin hər il apardığı iqtisadi məlumatların öyrənilməsi göstərir ki, bazarlara davamlı və geniş surətdə arxalanma əhalinin hər nəfərinə düşən gəlirin artmasına, sürətli iqtisadi inkişafa, aşağı işsizlik səviyyəsinə, uzunömürlülüyə, uşaq ölümünün azalmasına, uşaq əməyindən istifadənin səviyyəsinin aşağı düşməsinə, təmiz suya olan tələbatın daha çox ödənilməsinə, səhiyyənin inkişafına və təmiz ətraf mühit və mükəmməl idarəçilik (rəsmi korrupsiyanın aşağı hədləri və daha demokratik məsuliyyət) də daxil olmaqla, müasir həyatın digər sahələrinin inkişafına gətirib-çıxarır. Azad bazarlar yaxşı nəticələr doğurur.

Buna baxmayaraq, bu yolun "yaxşı balanslaşdırılmış"orta variantı yoxdur. Bazara dövlət müdaxiləsi adətən təhriflərə, hətta böhranlara gətirib çıxarır və bu da yeni müdaxilələr üçün bəhanələrə çevrilir. Beləliklə, siyasət gah bu, gah da digər istiqamətə yönəldilir. Məsələn, iqtisadi inkişafdan daha sürətlə artan valyuta təklifi yaradan  ehtiyatsız valyuta siyasətinin də daxil olduğu "portfel siyasəti "qiymətlərin artımına aparır. Tarix dəfələrlə nümayiş etdirib ki, siyasətçilər öz yarıtmaz siyasətlərini pisləməklə deyil, təqsiri "həddən artıq inkişaf edən iqtisadiyyatın", yaxud "qeyri-vətənpərvər spekulyatorların" üstünə yıxmaqla və qiymətlər üzərinə nəzarət qoymaqla cavab verməyə meyllidirlər. Qiymətlərin tələb və təklif vasitəsilə təshihi mümkün olmadıqda (belə halda, pula olan təklifin artması istehlak mallarında ifadə olunan pulun dəyərini aşağı salır), nəticədə məhsul və xidmət qıtlığı yaranır. Çünki adamların çoxu məhdud təchizat mallarını istehsalçıların satmaq istəmədikləri aşağı bazar qiymətləri ilə almağa can atırlar. Həmçinin, azad bazarların olmaması insanları qara bazarlara, rəsmilərə rüşvət verməyə və digər qanundankənar vasitələrə üz tutmağa vadar edir. Qıtlıq və korrupsiya qarışığından ibarət nəticə hakimiyyətin daha çox avtoritar güc əldə etməsinə gətirib çıxarır. Özündə bu cür yanlış siyasətləri ehtiva edən "portfel siyasəti"nin effekti iqtisadiyyatın rolunu azaltmaqdan, korrupsiya yaratmaqdan və hətta konstitusion demokratiyanın əsaslarını zəiflətməkdən ibarətdir.

## Hibrid Etik/İqtisadi Tənqid

<u>12. Bazarlar qeyri-bazar proseslərindən daha çox qeyri-bərabərliyə aparır</u>

*Tərifə görə, bazarlar istehlakçıların istəklərini qarşılamaq bacarığını mükafatlandırır və belə ki, bacarıqlar müxtəlif olduğundan, gəlirlər də müxtəlifdir. Bundan əlavə, tərifə görə, sosializm bərabərlik vəziyyətidir. Beləliklə, sosializmə doğru hər hansı addım, bərabərliyə doğru atılmış addımdır.*

Biz siyasət və nəticələr arasındakı əlaqəni dərk etmək istəyiriksə, yadda saxlamalıyıq ki, mülkiyyət hüquqi, sərvət isə iqtisadi anlayışdır. Bu iki anlayış tez-tez səhv salınır, lakin onlar bir-birindən fərqləndirilməlidir. Bazar prosesləri müntəzəm surətdə sərvətləri böyük miqyaslarda yenidən bölüşdürür. Bunun əksinə olaraq, mülkiyyətin istəmədən yenidən bölüşdürülməsi (ayrı-ayrı vətəndaşlar tərəfindən həyata keçirildikdə, "oğurluq" kimi qiymətləndirilir) mülkiyyətin müəyyənləşdirilməsini və qanunla qorunmasını tələb edən azad bazarları idarə edən qanunlar tərəfindən qadağan olunur. Bazarlar hətta mülkiyyət hüquqları eyni əllərdə qaldıqda belə, sərvəti yenidən bölməyə qadirdir. Hər dəfə (sahibin mülkiyyət hüququnun mövcud olduğu) əmlakın dəyəri dəyişir, bununla, əmlak sahibinin sərvəti də dəyişir. Dünən 600 avroya olan əmlak, ola bilər ki, bu gün 400 avroya olsun. Bu, sərvətin 200 avrosunun bazar vasitəsilə yenidən bölüşdürülməsidir, baxmayaraq ki, bu zaman mülkiyyətin yenidən bölüşdürülməsi baş verməmişdir. Beləliklə, bazar müntəzəm olaraq sərvəti yenidən bölüşdürür və bu prosesin nəticəsində əmlak sahiblərinə öz sərvətlərinin dəyərini artırmaq və ya bunu edə biləcək adamlara vermək üçün stimul yaradır. Ümumi dəyəri artırmaq stimuluna əsaslanan bu cür müntəzəm yenidən bölüşdürmə, bir çox siyasətçilərin belə təsəvvür edə bilməyəcəkləri ağlasığmaz miqyasda sərvətin ötürülməsi formasında təzahür edir. Bunun əksinə olaraq, bazar prosesləri sərvəti yenidən bölüşdürərkən, siyasi proseslər mülkiyyəti birindən alıb digərinə verməklə bölür; nəticədə mülkiyyət daha az etibarlı və daha az dəyərli olur ki, bu da sərvəti dağıdır. Yenidən bölməni proqnozlaşdırmaq çətin olduqca, mülkiyyətin yenidən bölüşdürülməsi təhlükəsindən yaranan sərvət itkisinin miqdarı da böyük olur.

Bərabərlik elə səciyyəvi xüsusiyyətdir ki, bir çox fərqli kateqoriyalarda, adətən onların hamısını əhatə etmədən reallaşa bilər. Məsələn, insanların hamısı qanun qarşısında bərabər ola bilər, lakin belə olduğu halda, onların hamısının siyasətdə bərabər təsirə malik olması ehtimalı real deyil. Söz azadlığı haqqındakı hüququndan istifadə edənlərdən bəziləri digərlərinə nisbətən daha enerjili və bəlağətli nitqə malik və beləliklə, daha nüfuzlu olacaqlar. Analoji olaraq, azad bazarlarda məhsul və xidmətlər təklif etməyə bərabər hüquqların olması heç də bərabər gəlirlərin olacağı demək deyildir; belə ki, bəziləri digərlərinə nisbətən daha çox və daha gərgin işləyə bilər (çünki onlar gəliri istirahətdən üstün tuturlar), yaxud bəzilərinin elə bacarığı ola bilər ki, buna görə əlavə ödəniş əldə etsin. Digər tərəfdən, məcburiyyət vasitəsilə nüfuz bərabərliyi və gəlir bərabərliyi cəhdi bəzilərinin digərləri üzərində daha çox səlahiyyətə, yaxud belə nəticələr əldə etmək üçün zəruri siyasi gücə malik olmasına gətirib çıxara bilər. Nəticələrin xüsusi nümunələrini reallaşdırmaq üçün kimsə, yaxud hansısa qrup "İlahi gözə" malik olmalıdır ki, nəticələri yenidən bölüşdürsün, yəni çatışmazlığı və artığı görə bilsin və beləliklə, onları çox olan yerdən az olan yerə hərəkət etdirsin. Bərabər nəticələr yaratmaq gücü

rəsmən eqalitar(bərabərhüquqluluq) hesab olunan Sovet İttifaqında olduğu kimi, qeyri-bərabər siyasi və hüquqi gücə malik olan dairələrə həvalə olunduğundan, onlar bu gücdən qeyri-bərabər nəticələr və resurslara çıxış əldə etmək üçün istifadə etməyə can atırlar. Həm məntiq, həm də təcrübə göstərir ki, bərabər, yaxud "ədalətli" gəlirlər və ya bazarın spontan nizamlarının doğurduğundan başqa hər hansı digər formalar əldə etmək üçün edilən şüurlu cəhdlər ümumiyyətlə mənasızdır. Sadə bir təcrübə göstərir ki, mülkiyyəti bölüşdürmə səlahiyyətinə malik qüvvələr onu öz faydaları üçün işlədirlər. Bununla da, siyasi gücün qeyri-bərabərliyini digər formalı (istər şöhrət, sərvət, istərsə də digər şeylər) qeyri-bərabərliyə çevirirlər.  Bu, rəsmən özünü kommunist elan etmiş dövlətlərin yolu idi və bu yol hal-hazırda Venesuela kimi digər dövlətlər tərəfindən seçilmişdir ki, bu dövlətlərdə hakimiyyət bir adamın, Hüqo Çavesin əlində cəmləşmişdir. Beləliklə, o, bu qəti qeyri-bərabər qüvvəni vətəndaşlar arasında sərvət bərabərliyi yaratmaq üçün tələb edir.

2006-cı ilin *Economic Freedom of the World Report* jurnalının məlumatlarına görə azad bazarlara arxalanma gəlirlərdə qeyri-bərabərlik ilə zəif qarşılıqlı əlaqədədir (dünyanın ən az azad iqtisadiyyatından tutmuş, ən azad iqtisadiyyatına malik ölkələrdə ən yoxsul on faizin aldığı gəlir faizi orta hesabla 2.2%-dən, orta 2.5%-dək olmuşdur). Lakin bu, güclü surətdə ən yoxsul 10 faizin gəlir səviyyələri ilə qarşılıqlı əlaqədədir (dünya üzrə ən az azad iqtisadiyyatdan, ən azad iqtisadiyyata malik olan ölkələrdə ən yoxsul 10 faizin aldığı gəlirin orta səviyyəsi uyğun olaraq $826, $1 186, $2 322 və $6 519-dur). Bazarlara böyük inamla arxalanma, göründüyü kimi, gəlir bölgülərinə az təsir edir, lakin bu, yoxsulların gəlirlərini əhəmiyyətli dərəcədə artırır və çox ehtimal ki, yoxsulların çoxu bunu yaxşı hal kimi qiymətləndirir.

13. Bazarlar səhiyyə, yaşayış, təhsil və ərzaq kimi insan ehtiyaclarını təmin edə bilmir

*Məhsullar öz təbiətinə uyğun olan prinsiplər əsasında bölüşdürülməlidir. Bazarlar malları ödəmə qabiliyyətinə görə bölüşdürür, lakin səhiyyə, yaşayış, təhsil, ərzaq və digər insan ehtiyacları əsas insan ehtiyacları olduğundan, ödəmə qabiliyyətinə görə deyil, ehtiyac olduğu üçün bölüşdürülməlidir.*

Əgər bazarlar digər prinsiplərə nisbətən insan tələbatlarını ödəməkdə yaxşı fəaliyyət göstərirsə, yəni insanlar bazar iqtisadiyyatında sosializmdə olduğundan daha yüksək həyat standartlarına malikdirlərsə, bu o deməkdir ki, bazarın yerləşdirmə mexanizmi insan ehtiyaclarının ödənməsi sahəsində yaxşı fəaliyyət göstərir. Yuxarıda qeyd olunduğu kimi, yoxsulların gəliri azad bazarlar inkişaf etdikcə, sürətlə artır, bu da onu göstərir ki, yoxsullar öz ehtiyaclarını ödəmək üçün daha çox resurslara malik olurlar. (Təbii ki, bütün ehtiyaclar gəlirlə birbaşa bağlı deyil; həqiqi dostluq və məhəbbət, əlbəttə ki, bura aid olunmur. Lakin onların məcburi mexanizmlər vasitəsilə "bərabər" bölüşdürüldüyünü və ya belə mexanizmlər vasitəsilə bölüşdürülə bilməsini düşünmək üçün heç bir əsas yoxdur.)

Bundan başqa, "ehtiyac" anlayışının vurğulanması bir qədər geniş xarakterli iddia olduğundan, həmçinin "qabiliyyət" sözü də belədir, ödəməyə hazırlığı hesablamaq daha asandır. İnsanlar məhsul və xidmətlər üçün pullarını təklif edəndə, onlar həmin şeyləri o

biri məhsul və xidmətlərə nisbətən necə dəyərləndirdikləri haqqında məlumat vermiş olurlar. Təhsil və səhiyyədən daha əhəmiyyətli ehtiyac sayılan ərzaq bazarlar vasitəsilə çox effektiv surətdə təchiz edilir. Əslində, özəl mülkiyyətin məhv edildiyi və bazar bölgüsünün dövlət bölgüsü ilə əvəz olunduğu ölkələrdə nəticə aclıq və hətta kannibalizm olmuşdur. Bazarlar ən əsas ehtiyaclar da daxil olmaqla, insan tələbatlarını digər mexanizmlərdən daha effektiv surətdə ödəməyə qadirdir.

Tələbatların ödənməsi məhdud resursların işlənməsini tələb edir, yəni onların yerləşdirilməsi üçün seçimlər aparılmalıdır. Bazarların fəaliyyətinə imkan verilməyən yerlərdə məhdud resursları bölüşdürmək üçün  bürokratik yerləşdirmə, siyasi gərginlik, hakim partiyaya üzvlük, əsas güc mərkəzlərinə yaxınlıq, rüşvət və korrupsiya kimi digər sistem və kriteriyalardan istifadə olunur. Bu kriteriyaların bazar kriteriyalarından yaxşı olduğunu və bərabərlik yaratdığını düşünmək çətindir, belə ki, təcrübə tam əksini sübut etmişdir.

14. Bazarlar təbii seçim prinsipi üzərində bərqərar olur

*Cəngəllik qanunu "diş və caynağın qırmızı" olmasını ifadə etdiyi kimi, bazar qanunu da təbii seçim ifadə edir. Bazar standartlarına uyğun olmayanlar yolun kənarında yıxılır və təpiklər altında tapdanır.*

Yaşayış sistemləri və insanların sosial qarşılıqlı əlaqələri haqqında tədqiqatlarda, təkamül prinsipləri tərəfdarları öz çağırışlarında hər bir hal üçün nəyin sağ qaldığını göstərmədikdə, onların "təbii seçim" kimi çağırışları dolaşıqlıq yaradır.. Biologiya nöqteyi-nəzərindən, bu, fərdi heyvan və onun özünü yenidən yaratmaq qabiliyyətidir. Bərk qaçmağı bacarmayan dovşanı şir yeyir və dovşan artıq bala verə bilmir. Bərk qaça bilən dovşanlar isə yenidən doğub törəyəcəklər. İctimai təkamülə gəldikdə isə, sağ qalma predmeti tamam fərqlidir; bu, fərdi insan deyil, ictimai əlaqənin formasıdır, yəni təkamül mübarizəsində "seçilmiş" adət, təsisat, yaxud firmadır. Hər hansı kommersiya firması biznes fəaliyyətindən qalarsa, o "ölür", yəni ictimai əməkdaşlığın bir forması "ölür". Lakin bu hələ o demək deyil ki, bu firmanı yaradan insanlar da  - investor, sahibkar, menecer, işçilər və digərləri də "ölür"lər. Əməkdaşlığın ən qeyri-effektiv forması nisbətən effektiv forma ilə əvəz olunur. Bazar rəqabəti cəngəllik rəqabətindən kəskin fərqlənir. Cəngəllikdə heyvanlar bir-birini yemək və ya əvəz etmək üçün rəqabət aparır. Bazarlarda isə sahibkarlar və firmalar istehlakçılar və digər sahibkarlar və firmalar ilə əməkdaşlıq hüququ qazanmaq üstündə bir-birilə rəqabət aparırlar. Bazar rəqabəti yaşamaq imkanı əldə etmək üçün deyil, əməkdaşlıq imkanları uğrunda aparılan rəqabətdir.

15. Bazarlar incəsənət və mədəniyyəti korlayır

*İncəsənət və mədəniyyət insan qəlbinin yüksək elementlərinə cavab hissidir və buna görə pomidor, yaxud köynək düyməsi kimi alınıb- satıla bilməz. İncəsənəti bazarın öhdəsinə buraxmaq dini bazarın öhdəsinə buraxmaq kimidir, yəni dində olduğu kimi incəsənətə xas olan ehtirama xəyanət etməyə bərabərdir. Bundan əlavə, incəsənət və mədəniyyət*

*beynəlxalq bazarlarda getdikcə daha çox rəqabətə açıq olduğu üçün korlanır, çünki qüdrətli dollar və avro axtarışında bir çox ənənəvi formalar unudulur.*

İncəsənətin çox hissəsi bazar üçün istehsal olunub və olunmaqdadır. Həqiqətən, incəsənət tarixi əsasən yeni texnologiyalar, yeni fəlsəfələr, yeni zövqlər və mənəviyyatın yeni formalarına bazar vasitəsilə cavab reaksiyasının innovasiya tarixidir. Bir çox əsrlər boyu incəsənət, mədəniyyət və bazar bir-birilə sıx əlaqədə olmuşdur. Tərəvəz satanlar satdıqları pomidor üçün və dərzilər dəyişdirdikləri kostyum düymələrinə görə haqq tələb etdikləri kimi, musiqiçilər də konsertlərinə gələn adamlardan haqq tələb edirlər. Əslində, musiqi, filmlər və incəsənətin digər formaları üçün valların, kasetlərin, CD-lərin, DVD-lərin və hal-hazırda iTune və MP3 fayllarının yaradılması vasitəsilə əmələ gələn geniş bazarlar daha çox insanın müxtəlif incəsənət növlərindən bəhrələnməsinə, incəsənət işçilərinin daha çox yeni əsərlər yaratmasına, incəsənətin daha çox hibrid formalarının yaradılmasına və daha çox gəlir qazanılmasına imkan açır. Təəccüblü deyil ki, hər hansı bir il ərzində yaradılmış əsərlərin çoxu zamanın sınağına tab gətirmir; bu da müasir incəsənəti keçmişin böyük əsərləri ilə müqayisədə “tullantı” adlandıranlar üçün yanlış perspektiv yaradır; belə ki, onların müqayisə etdikləri keçmişdə istehsal edilmiş kütləvi işlər arasında ən yaxşılarıdır. Hərçənd, onlar zamanın sınağından çıxmayan və unudulmuş bütün əsərləri bura daxil etsəydilər, müqayisə tamam fərqli görünərdi. Ən yaxşının sağ qalmasının əsas səbəbi, şübhəsiz ki, bazarların incəsənət üçün rəqabətli proses olmasıdır.

Bütövlükdə müasir incəsənət yaradıcılığını keçmişin ən yaxşı əsərləri ilə müqayisə etməsi, insanların incəsənət nöqteyi-nəzərindən bazarları dəyərləndirərkən buraxdıqları yeganə səhv deyildir. Digər tipik bir səhv də yoxsul cəmiyyətlərə səfər edən varlı cəmiyyət müşahidəçilərinin yoxsul cəmiyyətdəki səfalətlə öz mədəniyyətlərini qarışıq salmasıdır. Varlı səyahətçilər yoxsul, lakin inkişaf etməkdə olan ölkələrdəki insanların mobil telefonlardan, laptop kompyuterlərdən istifadə etməsini görəndə, onlar səfərlərinin əvvəlki ilə müqayisədə “inanılmaz” olmasından şikayət edirlər. Liberallaşma və ya qloballaşmanın imkanları hesabına bazar əlaqələrinin genişlənməsi vasitəsilə insanlar varlandıqca, məsələn, mobil telefonların tətbiqi artıqca, zəngin ölkələrdə olan antiqloballaşma tərəfdarları yoxsulların onların mədəniyyətlərini “oğurladıqlarından” şikayətlənirlər. Axı niyə mədəniyyətlə yoxsulluq eyniləşdirilir? Yaponlar kasıblıqdan zənginliyədək irəli getdilər və hazırda onların əvvəlki yaponlardan nə iləsə fərqləndiyini iddia etmək çətindir. Əslində, onların zəngin sərvəti yapon mədəniyyəti haqqında məlumatın bütün dünyaya yayılmasına kömək etdi. Hindistanda gəlirlər artdıqca, moda sənayesi buna sari kimi milli geyim formalarına müraciət etməklə cavab verir və gözəllik və formanın yeni estetik kriteriyalarını tətbiq etməklə onları müasirləşdirir. Kiçik bir ölkə olan İslandiya öz ədəbi mədəniyyətini, öz teatrını, kino sənayesini qoruyub saxlamağa müvəffəq olmuşdur, çünki əhalinin hər nəfərinə düşən gəlirlərin yüksək olması onlara öz sərvətlərini mədəniyyətlərinin inkişafına sərf etmək imkanı verir.

Nəhayət, baxmayaraq ki, dini inanc “satış” üçün deyil, azad cəmiyyətlər dini də azad bazarın əsasında duran bərabər hüquqlar və seçim azadlığı prinsiplərinə görə sərbəst buraxırlar. Kilsə, məscid, sinaqoq və məbədlər daha çox tərəfdar cəlb etmək və dəstək qazanmaq uğrunda bir-birilə rəqabət aparırlar. Təəccüblü deyil ki, kilsələrə rəsmi dövlət dəstəyi verən Avropa ölkələrində kilsəyə gələnlərin sayı az, dinə dövlət dəstəyi olmayan

ölkələrdə isə kilsəyə gələnlərin sayının çox olması müşahidə olunur. Bunun səbəbini başa düşmək çətin deyil: tərəfdar və dəstək uğrunda rəqabət aparan kilsələr öz üzvlərini sakramental(dini ayinlərin icrası), mənəvi və kommunal xidmətlərlə təmin etməlidir və üzvlərin ehtiyaclarına belə böyük diqqət daha çox dindarlıq və iştirakçılıq tələb edir. Bu səbəbdən, İsveçin rəsmi yaradılmış dövlət kilsəsi 2000-ci ildə kilsənin dövlətdən ayrılması üçün lobbiçilik edirdi. Belə ki, dövlət bürokratiyasının bir hissəsinə çevrilmiş kilsə öz üzvləri və potensial tərəfdarları ilə əlaqələrini itirirdi və bir sözlə "ölməkdə" idi.

Bazar, incəsənət və mədəniyyət arasında heç bir ziddiyyət yoxdur. Bazar mübadiləsi incəsənət təcrübəsi, yaxud mədəni zənginliklə eyni deyildir, lakin hər ikisini inkişaf etdirməyə yardım göstərən mexanizmdir.

16. Bazar yalnız zəngin və istedadlılara mənfəət gətirir

*Varlı daha varlı, kasıb isə daha yoxsul olur. Çox pul qazanmaq istəyirsənsə, çoxdan başlamalısan. Mənfəət üçün bazar yarışında öncədən start götürənlər finişə birinci çatırlar.*

Bazar prosesləri qalib və məğlubların olduğu yarış deyildir. İki tərəf könüllü surətdə mübadiləyə razılaşanda kimin udub, kimin uduzacağını deyil, hər ikisinin mənfəət əldə edəcəyini düşünürlər. Yarışdan fərqli olaraq mübadilədə bir tərəfin udması heç də digər tərəfin uduzacağı demək deyildir. Hər iki tərəf qazanır. Məsələ digər tərəfi "vurmaq" deyil, könüllü mübadilə yolu ilə hər iki tərəfin qazanmasıdır; digər şəxsi mübadiləyə cəlb etmək üçün ona da mənfəət təklif etməlisən.

Varlı mühitdə doğulmaq yaxşı şeydir; bunu varlı ölkələrin vətəndaşları yoxsul ölkələrdən köçüb varlı ölkəyə gəlmək istəyən əcnəbilər qədər qiymətləndirə bilmirlər. Sonuncular varlı ölkədə yaşamağın faydasını orada doğulanlardan daha yaxşı bilirlər. Lakin giriş azadlığının və bütün alıcı və satıcılar üçün bərabər imkanların mövcud olduğu azad bazarlarda dünən bazar tələbatını qarşılamağı yaxşı bacaranlar sabah bazar tələbatını qarşılamağı yaxşı bacaranlara oxşamaya bilərlər. Sosioloqlar hərbi qüvvəyə, kasta üzvlüyünə, yaxud da tayfa və ya ailə əlaqələrinə arxalanan statik elitaya deyil, azad cəmiyyətləri xarakterizə edən "elitaların dövriyyəsi"nə istinad edirlər. Azad cəmiyyətin elitaları – incəsənət, mədəniyyət, elmi və iqtisadi elitalar da daxil olmaqla – bütün yeni üzvlərə açıqdır, burada üzvlük çox nadir hallarda üzvlərin uşaqlarına keçir və onlardan çoxu yuxarı sinifdən orta siniflərə çevrilirlər.

Varlı cəmiyyətlərdə güclülərin himayəsi, proteksionizm, merkantilist monopoliyalar və nəzarət yolu ilə bazarların kəskin surətdə məhdudlaşdırıldığı, bazarlarda inkişaf imkanlarının çətinləşdirildiyi ölkələri qoyub gələn müvəffəqiyyət əldə etmiş çoxlu sayda insanlar var. Onlar həmin cəmiyyətləri az, yaxud heç bir vəsait olmadan tərk etmiş və daha açıq və bazar yönümlü cəmiyyətlər olan ABŞ, Birləşmiş Krallıq və Kanada kimi ölkələrdə uğur qazanmışlar. Onların tərk etdikləri cəmiyyətlərlə yeni qoşulduqları cəmiyyətlərin arasındakı fərq nədən ibarətdir: bazarda rəqabət aparmaq azadlığı. Çox təəssüf olsun ki, yoxsul ölkələrdəki merkantilizm və məhdudiyyət onları xaricə "qovur"

və beləliklə, bu adamlar öz evlərində qalıb sahibkarlıq bacarıqlarını işlətməklə öz qonşularını və dostlarını zənginləşdirə bilmirlər.

Ümumiyyətlə, azad bazarlar olan ölkələrdə yaradılmış bolluq heç də varlıların tələbatlarını ödəmək üçün deyil, daha aşağı sinfin arzularını ödəməyə xidmət edir. “Ford Motors“dan tutmuş “Sony”yə, “Wal-mart”adək zəngin sərvət yaradan şirkətlər varlıların deyil, aşağı və orta siniflərin zövqünü oxşamağa meyllidirlər.

Azad bazarlar heç kimə yer zəmanəti verməyən, yaxud kimsənin təsadüfi doğulması ilə girişə qadağan qoymayan “elitaların dövriyyəsi” kimi xarakterizə olunmağa meyillidir. “Varlı daha varlı, yoxsul isə daha yoxsul olur” ifadəsi azad bazarlara deyil, merkantilizm və siyasi himayədarlığa, yəni sərvəti hakimiyyətə yaxınlığın müəyyənləşdirdiyi sistemlərə xasdır. Bazarlar sistemində ümumi praktika bundan ibarətdir ki, varlı daha yaxşı imkana malik olur (lakin öz cəmiyyətlərinin standartlarına görə varlı kimi qalmaya da bilər), yoxsul isə varlanır və bir çoxu da orta və yaxud yuxarı sinfə keçir. Hər hansı bir anda tərifə görə əhalinin 20%-i gəlirin ən aşağı kvintilində, 20%-i isə ən yüksək kvintilində olacaq. Lakin bu o demək deyil ki, həmin kvintillər eyni miqdarda olan gəlirləri müəyyənləşdirəcək (çünki bütün gəlir qruplarının gəliri iqtisadiyyat genişləndikcə artır), yaxud gəlir kateqoriyaları həmişə eyni adamlar tərəfindən tutulacaq. Kateqoriyalar bir qədər otel otaqlarına, yaxud avtobus oturacaqlarına bənzəyir, onlar kimsə tərəfindən tutulur, lakin bunlar həmişə eyni şəxslər olmur. Bazar yönümlü cəmiyyətlərdəki gəlir bölgüsünü tədqiq edərkən, gəlir bölgüsündəki səviyyələri yuxarı qalxan və aşağı düşən çoxlu sayda adamlarla birgə böyük gəlir mobilliyi üzə çıxır. Lakin ən əhəmiyyətli olan budur ki, zəngin bazar iqtisadiyyatı bütün gəlirlərin ən aşağıdan ən yuxarıyadək artmasını düşünür.

<u>17. Qiymətlər liberallaşdırıldıqda və bazar qüvvələrinin öhdəsinə buraxıldıqda, onlar məhz yuxarı qalxır</u>

*Fakt budur ki, qiymətlər hökumət nəzarəti olmadan bazar qüvvələrinin ixtiyarına buraxılanda onlar qalxır, deməli, insanların alıcılıq qabiliyyəti azalır. Azad bazar qiymətləri yüksək qiymətlərin sadəcə olaraq başqa adıdır.*

Bazar səviyyəsindən aşağıda qalması üçün nəzarət olunan qiymətlər azad buraxılan kimi, ən azı, qısa vaxt üçün artmağa meylli olur. Lakin məsələnin başqa tərəfi də var. Bəzi nəzarət olunan qiymətlər bazar səviyyəsindən yüksək saxlanılır və azad olduqda, düşməyə başlayır. Bundan başqa, dövlət tərəfindən nəzarət edilən pul dəyərlərinə nəzər saldıqda xatırlamaq zəruridir ki, əldən-ələ keçən pullar uğurla mal alanların ödədiyi yeganə xərc deyil. Əgər məhsul növbədə durmaqla alınırsa, onda növbədə itirilən vaxt da mal üçün ödənilən dəyərə əlavə olunur. (Qeyd etmək lazımdır ki, gözləmə vaxtı əsl itkidir, çünki bu heç də istehsalçıları tələbatı ödəmək məqsədilə daha çox məhsul istehsal etməyə həvəsləndirmək üçün ötürülən vaxt deyil). Əgər korrupsioner rəsmilər əllərini açarsa, bu o deməkdir ki, stolun üzərinə qoyulmaqla ödənilən rəsmi pula əlavə olunacaq stolaltı məbləğ də var. Dövlət tərəfindən mallara və xidmətlərə görə maksimum qiymət müəyyən edildiyi zaman, qanuni şəkildə ödənilmiş məbləğ, qeyri-qanuni rüşvət və növbələrdə itirilmiş vaxtın cəmi adamların bazar vasitəsilə razılaşdıracağı qiymətlərdən

xeyli yüksəkdir. Bundan əlavə, rüşvət şəklində sərf edilən pullar, növbədə itirilən vaxt hədər gedir – onlar istehlakçılar tərəfindən sərf edilir, lakin istehsalçılara çatmır. Beləliklə, onlar istehsalçıları daha çox istehsal etməyə stimullaşdırmır və qiymət nəzarətinin nəticəsində yaranmış qıtlığı yüngülləşdirir.

Qiymətlər liberallaşdırılan zaman qısa vaxt üçün qiymətlər qalxarkən, nəticə istehsalı genişləndirmək və hədər yerə sərf edilən normalaşdırmanı və korrupsiyanı azaltmaqdır ki, bununla da əsas istehlak malları və insan əməyinin vaxtı ilə ifadə olunan ümumi real qiymətlər aşağı düşür. 1800-cü ildə hər hansı bir insanın bir kömbə çörək puluna sərf etdiyi vaxt onun əmək gününün ciddi bir hissəsi idisə, əməkhaqlarının mütəmadi olaraq qalxması ilə bir kömbə çörək puluna sərf edilən iş vaxtı varlı ölkələrdə artıq bir neçə dəqiqəyə düşmüşdür. Əmək nöqteyi-nəzərindən ölçülərkən, yalnız bir şeydən-əməyin özündən başqa bütün məhsulların qiyməti kəskin surətdə aşağı düşmüşdür. Əmək məhsuldarlığı və maaşlar qalxdığı üçün insan əməyinin alınması bahalaşır. Belə ki, yoxsul ölkələrdə sadəcə bir az varlı olan insanlar özlərinə qulluqçu tutur, lakin varlı ölkələrdə ən zəngin adamlar belə, ucuz başa gəlsin deyə, öz paltar və qab-qacaqlarını yumaq üçün maşın almağa üstünlük verirlər. Azad bazarların nəticəsi insan zəhməti ilə müqayisədə hər şeyin qiymətinin düşməsi və hər şeylə müqayisədə insan əməyinin qiymətinin qalxmasıdır.

<u>18. Özəlləşdirmə və bazar iqtisadiyyatına keçid post-kommunist ölkələrində korrupsiya yaratdı, bu da onu göstərir ki, bazarlar korrupsiyaya aparır</u>

*Özəlləşdirmə kampaniyaları, demək olar ki, həmişə saxtalaşdırılır. Bu, ən qəddar və rüşvətxor opportunistlərə ən yaxşı dövlət mülkiyyətlərini hədiyyə edən oyundur. Bütün özəlləşdirmə və bazar iqtisadiyyatı çirkli oyun olmaqla, xalqdan oğurluqdan başqa bir şey deyildir.*

Keçmiş sosialist ölkələrində aparılmış müxtəlif özəlləşdirmə kampaniyaları müxtəlif nəticələr vermişdir. Bəziləri tam uğurlu bazar qayda-qanunları yaratmışlar. Digərləri geriyə, avtoritarizmə doğru atılmış addım olmaqla, "özəlləşmə" proseslərinin nəticəsində həm dövlət, həm də özəl biznes üzərində nəzarəti ələ almış yeni elitaların peyda olması ilə nəticələnmişdir. Rusiyada bərqərar olan "Siloviki" sistemi buna misaldır. Saxta özəlləşmə sistemlərindən bəhrələnən çirkli əllərin çirkliliyi bazar təsisatlarının, xüsusən də, bazarın özülü sayılan qanun aliliyinin mövcud olmamasının nəticəsidir. Həmin təsisatların yaradılması asan iş deyil və bütün hallar üçün yarayan və tətbiqi hər zaman mümkün sayılan texnikanın olmaması bu tapşırığı daha da çətinləşdirir. Lakin qanunun aliliyini təmin edən institutların bəzi hallarda uğursuzluğu heç də buna cəhd etməməyin səbəbi ola bilməz. Hətta Rusiyanın timsalında yararsız özəlləşdirmə yolları belə ondan əvvəl mövcud olan və öz ədalətsizliyi və qeyri-effektivliyi ucbatından məhv olan birpartiyalı tirançılığa nisbətən irəliyə atılmış addım idi.

Funksional hüquqi sistem olmadan, sadəcə "özəlləşdirmə" prosesinin aparılması heç də bazar yaratmaq demək deyildir. Bazarlar qanuni əsaslara söykənməlidir: uğursuz özəlləşdirmə bazarın uğursuzluğu olmayıb, dövlətin bazarlar üçün hüquqi əsaslar yarada bilməməsinin nəticəsidir.

**Həddən artıq coşğun müdafiə**

19. İnsanlar arasındakı bütün əlaqələr bazar əlaqələrinədək məhdudlaşdırıla bilər

*Bütün fəaliyyətlər ona görə baş verir ki, iştirakçılar öz faydalılıqlarını həddən artıq şişirdirlər. Hətta başqa adamlara kömək etmək belə, özünə mənfəət qazandırmaqdır, yoxsa heç kim bunu etməzdi. Dostluq və məhəbbət, lap kartof kisələrinin mübadiləsində olduğu kimi, qarşılıqlı mənfəət üçün xidmətlər mübadiləsini təmsil edir. Bundan başqa, mənfəət vədləri əvəzinə seçici səslərinin mübadilə edildiyi siyasət, hətta geniş yayılmış "ya pulun, ya da həyatın" misalı ilə cinayətkar və qurban arasındakı mübadilə də daxil olmaqla, insanların qarşılıqlı əlaqələrinin bütün formaları bazar şərtləri daxilində dərk edilə bilər.*

Bütün hərəkətləri yalnız bir stimul səviyyəsinədək məhdudlaşdırmaq cəhdi insan təcrübəsini saxtalaşdırır. Valideynlər övladlarına görə nəyisə qurban verdikdə, yaxud təhlükədə olanda onları xilas etməyə can atdıqda, heç də mənfəət haqqında düşünmürlər. Adamlar xilas üçün, yaxud mənəvi təmizlik üçün dua edərkən onların stimulu paltar alarkən olduğu kimi olmur. Onları birləşdirən ümumi cəhət ondan ibarətdir ki, belə insanların hərəkətləri məqsədyönlü olur, yəni onlar məqsədlərinə çatmağa təşəbbüs göstərirlər. Lakin buradan məntiqlə belə nəticə çıxarmaq olmaz ki, onların əldə etməyə can atdıqları məqsədlər eyni bir cismin proporsional hissəciklərinə qədər kiçilə bilər. Bizim məqsəd və stimullarımız müxtəlif ola bilər: biz çəkic almaq üçün bazara gedəndə, incəsənət muzeyinə daxil olanda və körpə uşağın beşiyini yırğalayanda elə fərqli məqsədləri reallaşdırırıq ki, onların heç də hamısı bazarda alqı-satqı şərtləri ilə ifadə olunmur.

Bu, bir həqiqətdir ki, intellektual konstruksiyalar və vasitələr müxtəlif növlü qarşılıqlı əlaqələrin variantlarını başa düşməyə və aydınlaşdırmağa kömək edə bilər. Bazar mübadilələrini anlamağa kömək edən iqtisadi konsepsiyalardan siyasət elmini və hətta dini başa düşmək üçün də istifadə etmək olar. Biznes seçimləri kimi, siyasi seçimlərin də hesablana bilən xərcləri və mənfəətləri ola bilər; siyasi partiyaları və mafiya kartellərini bazardakı firmalarla müqayisə etmək olar. Lakin konsepsiyaların belə tətbiqindən elə nəticə çıxarmaq olmaz ki, guya bu iki seçim halı mənəvi və hüquqi cəhətdən ekvivalentdir. Sizə pulunuz və ya həyatınız arasında seçim etməyi təklif edən cinayətkarı heç də pulunuzu saxlamaq və onu əmtəə almağa sərf etmək təklifi verən sahibkar ilə eyniləşdirmək olmaz. Sadə bir səbəbə görə ki, cinayətkar sizi hər ikisinə mənəvi və hüquqi haqqınız olan iki şey arasından seçim aparmağa məcbur edir. Sahibkar isə sizə birinin üzərində özünün, ikincisinin üzərində isə sizin hüququnuz olan iki şey arasında seçim etməyi təklif edir. Hər iki halda siz seçim edir və məqsədyönlü hərəkət edirsiniz, lakin birinci halda kriminal sizi seçməyə məcbur edir, ikinci halda isə sahibkar sizə seçim təklif edir; birincisi sizin hüququnuzu azaldır, ikincisi isə sizə malik olduğunuz, lakin az dəyərləndirdiyiniz predmetə görə malik olmadığınız və daha çox dəyərləndirdiyinizi təklif etməklə hüququnuzu genişləndirməyi təklif edir. Heç də bütün insan əlaqələrini bazar səviyyəsinə kimi məhdudlaşdırmaq mümkün deyil; ən azı ona görə ki, könülsüz

mübadiləyə cəlb edilmiş şeylər kəskin surətdə fərqlidir, çünkü onlar qazanmaq imkanlarından daha çox imkan və dəyərlərin itkilərini təmsil edir.

20. Bazarlar bütün problemlərini hökümətin müdaxiləsi olmadan da həll edə bilərlər

*Hökumət elə səriştəsizdir ki, o heç nəyi düzgün edə bilməz. Bazarın əsas dərsi ondan ibarətdir ki, hökumət sadəcə bazara əks olduğundan, o daim zəiflədilməlidir. Hökumət idarəçiliyi az olduqca, bazar daha çox olur.*

Bazarın verəcəyi mənfəət haqqında məlumatlı olanlar etiraf etməlidir ki, dünyanın çox hissəsində, bəlkə də hər yerində əsas problem yalnız hökumətin çox və ya həddən artıq az iş görməsindən ibarət deyil. Sonuncu kateqoriya – hökumətlərin görməli olmadığı işlər aşağıdakılardan ibarətdir, a) məsələn “etnik təmizləmə”, torpaq oğurluğu və elitalar üçün xüsusi hüquqi güzəştlərin yaradılması kimi heç kimin yerinə yetirməyəcəyi fəaliyyətlər və b) bazarlarda firma və sahibkarların könüllü qarşılıqlı əlaqələri vasitəsilə görə bildikləri və görməli olduqları işlər, məsələn avtomobillərin istehsalı, qəzetlərin nəşri və restoranların idarə edilməsi. Hökumətlər bütün belə işləri görməməlidirlər. Lakin onlar etməli olmadıqları işlərin görülməsini dayandırdıqda, hökumət problemləri həll etmək üçün ədalət və könüllü qarşılıqlı əlaqələr yaratmaq naminə bəzi işlərin icrasına başlamalıdır. Əslində, hər ikisinin arasında əlaqə vardır: hökumətlərin bəzisi öz resurslarını maşın fabriklərinin idarə edilməsinə, yaxud qəzetlərin nəşrinə və ya daha betər – mülkiyyətləri müsadirə etməyə, azlıqlar üçün hüquqi güzəştlər yaratmağa sərf edir – hər iki halda hökumətlərin dəyərli xidmətlər təmin etmək qabiliyyəti aşağı düşür və azalır. Məsələn, kasıb ölkələrdə hökumətlər nadir hallarda aydın hüquqi bazanı təmin etmək üçün yararlı iş görürlər, mülkiyyətin müsadirə edilməsi təhlükəsindən danışmağa belə dəyməz. Hüquqi sistemlər tez-tez effektsiz, rabitəsiz olmaqla, könüllü sövdələşmələrin baş tutmasını asanlaşdırmaq üçün zəruri müstəqilliyə və bitərəfliyə malik olmurlar.

Bazarların sosial koordinasiya, mülkiyyət və müqavilələr üçün struktur təmin etməyə qadir olması qanunla yaxşı təsbit olunmalıdır. Belə ictimai mənfəətləri təmin edə bilməyən hökumətlər bazarların fəaliyyətini də təmin edə bilmirlər. Hökumətlər zəif olmaqla deyil, hüquqi cəhətdən nüfuzlu və eyni zamanda, məhdud gücə malik olmaqla qanun və ədalət yaradaraq ictimai marağa xidmət edə bilər. Zəif və qeyri-məhdud gücə malik hökumətlər çox qorxulu ola bilərlər. Belə ki, bu hökumətlər görməli olmadıqları işləri görür, lakin ədalətli davranış qanunlarını həyata keçirə bilmir, azadlıq və azad bazar mübadilələri üçün zəruri olan həyat, azadlıq və mülkiyyətin təhlükəsizliyini təmin edə bilmirlər. Azad bazarların mövcudluğu hökumətin tam yoxluğu demək deyil. Heç də bütün anarxiyalar cəlbedici deyillər. Azad bazarların yaranması ədalətli davranış qaydalarını obyektivliklə həyata keçirən məhdud hökümətlərin effektiv idarəçiliyi hesabına mümkün olmuşdur.

Bunu da xatırlamaq əhəmiyyətlidir ki, şüurlu surətdə həll edilməli olan xeyli problem mövcuddur: bütün problemlərin təmənnasız bazar prosesləri vasitəsilə həll olunacağını düşünmək kifayət deyil. Əslində Nobel mükafatı laureati iqtisadçı Ronald Koas özünün bazar və firmalara həsr etdiyi mühüm əsərində göstərir ki, firmalar adətən ümumi

məqsədlərinə nail olmaq üçün daim bazar mübadiləsinə istiqamətlənməkdənsə, şüurlu planlaşdırma və koordinasiyaya arxalanır, cünki bazara getmək çox xərc tələb edir. Hər yeni müqavilə üçün danışıqlar aparmaq baha başa gəlir, məsələn, müqavilə xərclərini azaltmaq üçün uzunmüddətli müqavilələrdən istifadə olunur. Firmalarda uzunmüddətli müqavilələr nağd mübadilələri əvəz edir, özündə komanda işi və sağlam istiqamətdən ibarət olan  əmək əlaqələrini ehtiva edir. Kollektiv əməyin və planlaşdırmanın kiçik adaları olan firmalar uğur qazanmağa qadirdir, çünki onlar bazar mübadilələri vasitəsilə spontan nizamın geniş okeanı içərisində hərəkət etməyi bacarırlar. (Sosialistlərin böyük səhvi bütün iqtisadiyyatı vahid bir firma kimi idarə etmək cəhdləri idi: bazarın geniş spontan nizamı daxilində şüurlu idarəetmənin və kollektiv əməyin məhdud rolunu tanımamaq eyni səhv idi). Bazarlar ədalətli davranış sisteminin yaradılmasını və həyata keçirilməsini təmin etdiyi qədər, azad bazar tərəfdarları da məhz bunu təşviq etməlidirlər. Özəl təhlükəsizlik firmaları çox vaxt dövlət polisindən yaxşıdır (və daha az zorakıdır, cünki dövlət istisna olmaqla, zorakılıq xərclərini üçüncü tərəfin boynuna qoymaq çətin olur); könüllü arbitraj çox vaxt dövlət məhkəmələrindən daha yaxşı işləyir. Lakin bu cür düşünmək istər bazar, istərsə də hökumət tərəfindən bazarların yaradılmasında, ədalətli və effektiv zəminin təmin edilməsində qaydaların əsas rol oynadığını qəbul etməyə gətirib.

Nəhayət, yadda saxlamaq lazımdır ki, mülkiyyət və bazar mübadiləsi öz-özünə bütün problemləri həll edə bilməz. Məsələn, əgər qlobal istiləşmə bütün planetin həyatını təhlükə altında qoyursa, yaxud ozon qatına zərər dəyməsi həyatın məhv olmasına gətirib çıxara bilərsə, bu cür təhlükələri sovuşdurmaq üçün koordinasiya olunmuş dövlət qərarları ən yaxşı, bəlkə də yeganə çıxış yoludur. Şübhəsiz, bu o demək deyil ki, bazar heç bir rol oynamayacaq; karbon dioksid emissiyalarına hüquq verən bazarların mövcud olması, məsələn, asan tənzimləməyə yardım edə bilər, lakin həmin bazar dövlətlər arasında koordinasiya yolu ilə yaradılmalıdır. Bir şeyi yadda saxlamaq lazımdır ki, hər hansı bir vasitə müəyyən bir problemin həllinə yaramırsa, bu hələ onun digər problemlərin həlli üçün də yaramaması demək deyildir. Həmin vasitə bir çox problemlərin həllində yararlı ola bilər. Mülkiyyət və bazarlar bir çox problemləri həll edir və onlara belə də inam olmalıdır; əgər onlar hər şeyi həll edə bilmirsə, bu hələ həlli üçün effektli və ədalətli təkliflər verdikləri problemlərə görə onlardan imtina etməyə səbəb sayıla bilməz.

Azad bazarlar bəşəriyyətin üzləşdiyi bütün mümkün problemləri həll edə bilməz. Lakin onlar azadlıq və çiçəklənmə yarada bilər və yaradır ki, bu haqda danışmağa dəyər.